AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**GÖZƏL İSMAYIL QIZI BAXŞƏLİYEVA**

# XIX YÜZİLLİKDƏ AZƏRBAYCANDA KİTAB İŞİNİN TARİXİ (ƏLYAZMA, DAŞBASMA, KITAB ÇAPI)

İxtisas: 5503.02 - Vətən tarixi

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2016**

Dissertasiya Bakı Dövlət Universitetinin Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
Əməkdar elm xadimi,
tarix üzrə elmlər doktoru, professor **S.S. Əliyarlı**

tarix üzrə fəsəfə doktoru, dosent **M.Q. Abdullayev**

**Rəsmi opponentlər:**
tarix üzrə elmlər doktoru, professor **F.N. Məmmədov**
tarix üzrə fəsəfə doktoru **D.M. Əzimli**

**Aparıcı təşkilat:** **AMEA-nın M. Füzuli adına Əlyazmalar İnstitutunun "Kitabşünaslıq və biblioqrafiya" şöbəsi**

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 24 fevral 2015-ci il tarixli 52 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının "_02_"__Aprel__2016-cı il tarixli iclasında saat "_$11^{00}$_"-da keçiriləcəkdir.

**Ünvan:** AZ1148, Akademik Zahid Xəlilov küçəsi, 23

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_19_" _Fevral_ 2016-cı ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**tarix üzrə elmlər doktoru, professor** **S.Y. Süleymanova**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Mədəniyyət tarixini kitab tarixindən ayrı təsəvvür etmək, öyrənmək və araşdırmaq mümkün deyildir. Yaxşı kitab bu günümüzlə dünənimiz arasında bir körpü, bir vəsilədir. İnformasiya daşıyıcıları nə qədər müasirləşsə də, elektron materiallar artsa da, virtual məkan insanların "dostuna" çevrilsə də kitabla təmasın zövqü əvəzedilməzdir.Yazılı irsimizin tarixi xalqımızın tarixi qədər qədimdir. Bəşər sivilizasiyası bərqərar olandan bəri elmin, mədəniyyətin əsas atributlarından biri olan kitabın ilkin rüşeymləri kağızın kəşfinə qədər müxtəlif formalarda, fərqli yazı ləvazimatlarında yaranmışdır. Azərbaycan xalqının mədəniyyət tarixi çox qədim və dərin köklərə malik olub və burada kitab yaradıcılığı ənənəsi, sənəti, xüsusilə orta əsrlərdə öz rəngarəngliyi, nəfisliyi ilə başlıca yer tutur. Kitab tarixi məhfumunun özü də geniş bir anlayışdır. Kitabın yaranmasında istifadə olunan materiallardan başlayaraq, əsrlər boyu onun üzünün köçürülməsi, sonralar çapı və yayılması da daxil olmaqla mühüm mərhələlər sistemi ümumilikdə kitab tarixini təşkil edir. Dissertasiya işində Azərbaycanda kitab mədəniyyətinin, o cümlədən əlyazma, daşbasma, kitab çapı tarixinin öyrənilməsi qarşıya məqsəd qoyulmuşdur. Tədqiqat işinin obyekti kimi göstərilən probemlərin seçilməsi kitab tarixi sahəsindəki boşluğun doldurulması zərurətindən irəli gəlmişdir və bu məsələ elmi - nəzəri, eyni zamanda təcrübi əhəmiyyətə malikdir.

XIX yüzillik Azərbaycan mədəniyyət tarixinin ən parlaq dövrlərindən biridir. Bu yüzillik Azərbaycan xalqına Abbasqulu ağa Bakıxanov, Mirzə Kazım bəy, Mirzə Şəfi Vazeh, Qasım bəy Zakir, Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov kimi böyük ədəbi simalar vermiş, xalqımızı realist dramaturgiya və teatrla, milli mətbuatla, inqilabi - demokratik fikirlərlə, azadlıq ideyaları ilə tanış etmişdir[1]. Bu dövrdə Azərbaycanda kitabçılıq işi əhəmiyyətli dərəcədə inkişaf etmiş, istər əlyazma, istərsə də çap

[1]Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. – B.: Maarif, 1956. - 488 s.

kitabları geniş yayılmışdı. Yüzilliyin əvvəlində ölkəmizdə baş verən ictimai-siyasi hadisələrin sürətlə bir-birini əvəz etməsi və sənayenin tərəqqisi kitab işinin də inkişafına öz təsirini göstərmişdir. Məhz bu dövrdə bir çox maarifpərvər ziyalının xidməti sayəsində Şimali Azərbaycanın Şuşa, Şəki, Şamaxı, Naxçıvan, Gəncə, Bakı və s. şəhərlərində bir sıra məktəblər, kitabxanalar və mətbəələr yarandı. Bu proseslər ümumilikdə Azərbaycanda kitabçılıq işinin inkişafına güclü təkan verdi. Yüzilliklər boyu kitablar yalnız əlyazma şəklində yaranırdısa, həmin yüzilliyin əvvəlindən kitablar çap üsulu ilə yayılmağa başladı. İlk dəfə Təbrizdə quraşdırılan çap dəzgahında kitablar nəşr olunmuşdur. Sonralar kitabçılıq işindəki bu yenilik ölkənin şimal hissəsində - Gəncə, Şuşa, İrəvan, Tiflis, Şamaxı və yüzilliyin sonlarından isə Bakıda tətbiq edildi. Buraya XIX yüzilliyin 70-ci illərində ilk dəfə dərc olunan milli mətbuatı da əlavə etmək lazımdır. XIX yüzillikdə kitab yaradıcılığı və nəşr işində baş vermiş yeniliklər həmin sahənin hərtərəfli şəkildə tədqiqi zərurətini ortaya çıxarmışdır.

Azərbaycanın kitab tarixinin öyrənilməsini konkret yüzilliklərə ayırmaq şərti xarakter daşıyır. Çünki XIX yüzillikdə yaranan kitablar nə özündən əvvəlki, nə də XX yüzilliyin əvvəlində yaranan əlyazma və çap kitablarından paleoqrafik xüsusiyyətlərinə görə o qədər də fərqlənmir. Ancaq zaman fərqi qədim dövrə, kitabın ibtidai nümunələrinə doğru dəyişdikcə, müqayisəli təhlil fərqli xüsusiyyətləri ortaya çıxarır və kitab tarixinin mərhələli öyrənilməsi məsələsinin vacibliyini şərtləndirir. Bu mənada Azərbaycan kitabının XIX yüzillikdə yaranan həm əlyazma, həm də əski çap nümunələri üzərində araşdırmaların aparılması çox əhəmiyyətlidir. Azərbaycan kitab mədəniyyəti tarixinin araşdırılması bu qiymətli mənbələrin səhifələrində qorunub saxlanılmış tarixi həqiqətlərin aşkar olunmasına imkan yaradır.

**Tədqiqat işinin xronoloji çərçivəsi.** Təqdim olunan dissertasiya işi XIX yüzillikdə Azərbaycanda kitab işinin tarixini, əlyazma, daşbasma və kitab çapının, eyni zamanda kitabla birbaşa bağlı olan məktəb, mədrəsə, şəxsi kitabxana və mətbəələrin tarixini öyrənir, bu məsələləri

təhlil və tədqiq edir. Bu dövrün kitab tarixinin öyrənilməsi heç də təsadüfi deyil. Yuxarıda da qeyd olunduğu kimi XIX yüzillik xalqımızın tarixində mühüm əhəmiyyət daşıyan bir dövrdür. Bu zaman kəsiyində həm faciələrimizin, həm də milli oyanışımızın başlanğıcı qoyulmuşdur. Milli burjuaziyanın yaranması,neft hasilatı ilə iqtisadiyyatda canlanmanın hiss edilməsi, ictimai-siyasi həyatda baş verən yeniliklər bütövlükdə mədəniyyət, o cümlədən kitab tarixinə öz müsbət təsirini göstərdi. Bu baxımdan XIX yüzillikdəki kitab işinin kompleks şəkildə öyrənilməsi müstəsna əhəmiyyət daşıyır.

**Mövzunun öyrənilmə səviyyəsi.** Ötən yüzilliklər ərzində çox zəngin kitab sərvətinin yaranmasına baxmayaraq, bu xəzinənin tarixinin öyrənilməsi uzun müddət diqqətdən kənarda qalmışdır. Şərq kitablarının araşdırılmasına daha öncə avropalılar XVIII yüzilliyin əvvəllərindən başlamışlar. Görkəmli kitabşünas alim, professor Cahangir Qəhrəmanov göstərir ki, 1739-cu ildə Parisdə nəşr olunmuş "Kral kitabxanası əlyazmaları kataloqu" bu sahədə elmə məlum olan ilk əsərdir."Bu kataloqda Paris Kral kitabxanasında saxlanılan 4200-ə qədər müxtəlif Şərq əlyazmaları haqqında məlumat verilir"[1]. Sonralar Qərb ölkələrinin kitabxanalarındakı əlyazmaların tarixi müxtəlif şərqşünas alimlər - S. Assemanus, U. Steven, J. Russo, Ş. Riye, E. Bloşşe, E.Rossi, B. Dorn, E. Braun, H. Etye, V. Perş, H.f. Dits və başqaları tərəfindən araşdırılmışdır. Azərbaycanda isə bu sahədə ilk təşəbbüs XIX yüzilliyin əvvəlində böyük mütəfəkkir Abbasqulu ağa Bakıxanova (1794-1847) məxsusdur. Rus ordusu 1828-ci ildə Ərdəbili işğal etdikdən sonra Şeyx Səfi məqbərəsi kitabxanasından qarət edilmiş əlyazma kitabları Sankt-Peterburqa aparılarkən bir müddət Tiflisdə saxlanılmışdı. Rus ordusunda mütərcimlik edən A.Bakıxanov bu fürsətdən istifadə edərək əlyazma kitablarının siyahısını tərtib etmişdir. Bu siyahını əlyazma kitablarımızla bağlı tərtib edilmiş indiki kitab kataloqlarının ilkin, ibtidai forması hesab etmək olar[2].

---

[1]Qəhrəmanov C."Azərbaycan əlyazma kitabı Avropa kitabxanalarında"// "Azərbaycan filologiyası məsələləri"III buraxılış. - B.: Elm, 1991. - s.5-18

[2]Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci illərə qədər) /elmi red.prof. S.Əliyarlı. – B.: 1996. - 869 s.

Azərbaycan kitabının X-XI yüzilliklərdən başlayaraq əlyazma kodeks forması, çox sonralar, XIX yüzilliyin əvvəllərindən isə çap nümunələri meydana gəlmişdir. Mütəxəssislər hesab edirlər ki, təxminən min il ərzində katib və xəttatların köçürmüş olduqları əlyazma kitablarının sayı milyona çatır. Bu kitablar, həmçinin orta çağ alim və ədiblərimizin ərəb, fars dillərində qələmə aldıqları əsərlər, nəinki Azərbaycan mədəniyyətinin, hətta qonşu xalqların da mənəvi irsinin zənginləşməsində, eyni zamanda, ümumislam mədəniyyətinin inkişafında böyük rol oynamışdır. Azərbaycan kitabının, xüsusilə XIX yüzilliyə aid əlyazma və çap kitablarının elmi araşdırılmasına, demək olar ki, keçən yüzilliyin son onilliklərində başlanmışdır. XX yüzilliyin əvvəllərində görkəmli ədəbiyyatşünas alim Salman Mümtaz (1884-1941), həmçinin akademik Əbdülkərim Əlizadə (1906-1979) əlyazma və çap kitablarını, C. Qəhrəmanov, A. Qazıyev, A. Musayeva, K. Şərifli, M. Nağısoylu, M. Adilov və başqaları XIX yüzillik Azərbaycan əlyazma kitabının tarixini, A. Xələfov, B. Allahverdiyev, Ə. Mirəhmədov, A. Əliyeva-Kəngərli, H. Həsənov, P. Kazımi, T. Kərimli, K. Tahirov, Ə. Nəcəfov və başqaları kitab, həmçinin kitabxana tarixinin müxtəlif mərhələlərini araşdırmışlar. Azərbaycan kitabı tarixinin müxtəlif mərhələlərə aid, orta çağ müəlliflərinin yaradıcılığını əhatə edən və katiblər tərəfindən köçürülmüş əlyazma kitablarının tədqiqi sahəsində dissertasiyalar yazılaraq müdafiə olunmuş, monoqrafiyalar nəşr edilmişddir. Burada İ. Zəkiyevin[1], F. Ələkbərovun[2], N. Yarməmmədovun[3], A. Əliyeva-Kəngərlinin[4] və başqalarının dissertasiya və digər elmi - tədqiqat əsərlərini göstərmək olar.

---

[1]Zəkiyev İ. Azərbaycan kitabının inkişaf yolu (qədim dövrdən XIX əsrin sonuna qədər ). - B., 2000. - 388s.

[2]Алекперов Ф. Писменные источники X - XVIII вв. об охране здоровья в средневековом Азербайджане. (дис. на соис. док. н. по ист.). - Б., 1997. - 327 с.

[3]Yarməmmədov N. XIX əsr Azərbaycan əlyazma kitabı. - B.: Nurlan, 2009. - 150 s.

[4]Əliyeva-Kəngərli A. Azərbaycan folklor kitabı: qaynaqları, təşəkkülü və inkişaf mərhələləri (fil. ü.e. d. diss.). - B., 2010, 260s.

Beləliklə, yeni aşkar olunmuş əlyazma, əski çap kitabları ilə zənginləşən mənəvi sərvətimizin müasir metodologiya ilə araşdırılması zərurəti ortaya çıxmışdır. Həmin tədqiqatlar Azərbaycan kitab tarixinin konkret problematik məsələlərini əks etdirməklə yanaşı bu sahənin mütəxəssislərində kifayət qədər geniş təsəvvür yaradır. AMEA-nın M. Füzuli adına Əlyazmalar İnstitutunun əməkdaşı M. Adilovun Azərbaycan kitabının paleoqrafiyasına aid əsəri, o cümlədən onun Ə. Məmmədbağıroğlu ilə birgə yazdığı əlyazma kitabının öyrənilməsi sahəsində filiqranların (su nişanlarının) əhəmiyyətindən bəhs edən "Azərbaycan əlyazmalarında filiqranlar" monoqrafiyaları, T. Nurəliyevanın əlyazma kolleksiyalarından bəhs edən "Əlyazma kolleksiyaları kataloqu" adlı əsəri də həmin məqsədə xidmət edir. Son zamanlar xarici ölkələrin kitabxana və muzeylərindən azərbaycanlı müəlliflərin əsərlərinin, folklorumuza aid yazılı xalq ədəbiyyatı nümunələrinin surətləri aşkara çıxarılaraq ölkəmizə gətirilmiş, ayrı-ayrı şəxslərin şəxsi kolleksiyalarından əldə edilən nadir, elm və kitab tariximiz üçün olduqca əhəmiyyətli olan yazılı mənbələr kitab sərvətimizi daha da zənginləşdirmişdir.

**Tədqiqatın mənbə bazası.** Aparılan tədqiqat işləri Salman Mümtaz adına Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Arxivində, AMEA-nın M. Füzuli adına Əlyazmalar İnstitutunun arxivlərində və M.F. Axundzadə adına Azərbaycan Milli Kitabxanasında olan mənbələr əsasında yerinə yetirilmişdir. Azərbaycan kitab tarixininin inkişaf yoluna nəzər salınmış və son yüzilliklərdə, xüsusilə XIX yüzillikdə meydana çıxan əlyazma, əski çap kitabları və digər nəşr məhsulları tədqiqat işinin başlıca mənbələri kimi götürülmüşdür. Dissertasiyanın elmi müddəaları müəyyənləşdirilərkən Azərbaycan, rus, Avropa alimlərinin kitab tarixinə, ümumiyyətlə, kitabşünaslıqla bağlı elmi məqalə, monoqrafiya və digər tədqiqatlarına istinad edilmişdir. Dissertasiyanın mövzusuna uyğun olaraq qarşıya qoyulmuş məsələlər təhlil edilərkən əsasən ilkin mənbələrə - əlyazmalara, bu gün heç də əlyazma kitablarından dəyər və unikallığına görə geri qalmayan və çağdaş dövrümüzə nadir nümunələri gəlib çatan əski çap kitablarına müraciət olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Elmi-tədqiqat işinin əsas məqsədi XIX yüzillikdə Azərbaycan kitab işinin, onun əsas sahələri olan əlyazma, daşbasma və kitab çapının, eyni zamanda kitabla birbaşa bağlı olan məktəblərin, mədrəsələrin, şəxsi kitabxanaların tarixini öyrənməkdir. Azərbaycanın kitab tarixi araşdırılarkən yalnız ölkəmizdə olan əlyazma və əski çap kitabları ilə məhdudlaşmaq olmaz. Xalqımıza məxsus yazılı irsin böyük bir hissəsi bu gün dünya ölkələrinin məşhur muzey və kitabxanalarında saxlanılmaqdadır. Azərbaycan kitabı ilə bağlı aparılan araşdırmalar nə qədər ki, yekunlaşmayıb, ölkəmizdə, həmçinin xarici ölkələrdəki kitablarımızın saxlanıldığı ünvanların və onların sayı haqqında bu gün dəqiq fikir söyləmək mümkün deyil. Məhz bu baxımdan çətin və maraqlı elmi - tədqiqat sahəsi olan Azərbaycanın kitab tarixinin öyrənilməsinə hər zaman ehtiyac duyulur. Beləliklə, tədqiqatın başlıca vəzifələri aşağıdakılardır:

- Azərbaycan əlyazma kitabının XIX yüzilə qədər inkişaf yolunun qısa şərhi;
- XIX yüzil Azərbaycan əlyazma kitabının yayılması, paleoqrafik xüsusiyyətlərinin müəyyənləşdirilməsi;
- kitabdan yararlanan bilik ocaqları (məktəblər, şəxsi kitabxanalar və başqaları) haqda məlumat;
- ilk yeni üsullu məktəblərin yaradılması və əhəmiyyətinin göstərilməsi;
- XIX yüzilliyə aid Azərbaycan kitabını təmsil edən başlıca qaynaqların müəyyənləşdirilməsi və təhlili;
- Azərbaycanda çap sənətinin yaranma prosesi və başlıca xüsusiyyətlərinin araşdırılması;
- M.M.Nəvvabın kitab işinin tarixindəki rolunun əsaslandırılması.

Mövcud olan və zaman-zaman arxivlərdən yeni nümunələri aşkara çıxarılan əlyazma, əski çap, eləcə də dövri mətbuat və s. yazılı mənbələrin üzərində tədqiqat aparmaq, nüsxələrinin sayını, saxlanıldığı yeri müəyyən etmək, elmi-paleoqrafik xüsusiyyətlərini, nüsxələr arasındakı fərqi göstərmək bu tədqiqatın başlıca vəzifələrindəndir.

**Tədqiqat işinin metodoloji əsası.** Dissertasiyanın metodoloji əsasını Azərbaycan mədəniyyətinin başlıca hissəsini özündə birləşdirən kitab

tarixinin öyrənilməsi sahəsində aparılmış elmi - nəzəri araşdırmalar, bu sahədə tarix, filologiya, mənbəşünaslıq, arxeologiya, folklorşünaslıq elmlərinin nailiyyətləri və xüsusilə əlyazmaşünas, kitabşünas alimlərin zəngin təcrübi fəaliyyətləri nəticəsində meydana çıxan tədqiqat üsulları təşkil edir. Tədqiqat zamanı XIX yüzilliyə aid mənbələrlə bağlı fikirlər dədiqləşdirilərkən və məsələnin fərqli tərəfi ortaya qoyularkən, daha öncəkilərlə tutuşdurulmuş və müqayisədən hasil olan nəticəni əks etdirən fikirlər söylənmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində adı çəkilən bir çox mənbələrin paleoqrafik xüsusiyyətləri ilk dəfə araşdırılmışdır. Bu araşdırmaların nəticələri kitab tariximizin öyrənilməsində böyük əhəmiyyətə malikdir. Dissertasiya işində xeyli elmi yeniliklər vardır:

- İlk dəfə olaraq kitab tarixinə aid ilkin mənbələr əsasında əlyazma, daşbasma və kitab çapının tarixi kompleks şəkildə tədqiq edilib öyrənilmişdir.
- XIX yüzil Azərbaycan kitabı və çap sənətinin meydana gəlməsinin öyrənilməsi nəticəsində kitab tarixinin mühüm xüsusiyyətləri aşkar edilmişdir.
- XIX yüzillikdə meydana gələn əlyazma kitablarının yayılma yolları və xüsusiyyətləri müəyyənləşdirilmişdir.
- Həmin yüzillikdə kitabdan yararlanan bilik ocaqlarının (məktəblər, şəxsi kitabxanalar və b.) tarixi tədqiq olunmuşdur.
- Elmi-tədqiqat işində bir sıra şəxsi kitabxanası olan şəxslərin,o cümlədən XIX yüzillikdə yaşamış xəttat, maarif xadimi, eyni zamanda zəngin kitabxana yaratmış Əbdülqəni Nuxəvi Xalisəqarızadənin fəaliyyəti öyrənilmişdir.
- Dissertasiyada həm əlyazma, həm də öz şəxsi daşbasma məbəəsində çap kitablarını yaradan və onlara bədii tərtibat verən görkəmli ədib Mir Möhsün Nəvvab Ağamirzadə Qarabağinin kitab işinin tarixindəki yeri və rolu ilk dəfə olaraq tədqiq edilmişdir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Təqdim olunan elmi - tədqiqat işinin nəzəri və təcrübi əhəmiyyəti vardır. Dissertasiya işinin nəticələri kitab və mədəniyyət tarixinin tədris olunduğu ali və orta

ixtisas təhsili müəssisələrində, kitab tarixindən, xüsusilə, XIX yüzillikdə mövcud olmuş kitab və mədəniyyət tarixindən bəhs edən kitabların yaranmasında istifadə oluna bilər. Bu nəticələrdən Bakı Dövlət Universitetinin "Kitabxanaçılıq - informasiya" fakültəsində tədris olunan kitab tarixi fənninin tədrisində istifadə etmək olar. Dissertasiya böyük alim, kitab çapçısı, rəssam, daşbasma mətbəəsi yaratmış Mir Möhsün Nəvvabın həyatı və fəaliyyəti ilə bağlı arxiv materialları ilə zəngin olduğundan onun haqqında yazılan kitablarda və digər materillarda istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi BDU - nun Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasında iki dəfə müzakirə edilmişdir. Tədqiqatın əsas müddəaları müəllifin müxtəlif elmi nəşrlərdə çap olunmuş 11 elmi işində, o cümlədən xaricdə (Известия КазНУ) çap olunmuş 2 məqaləsində, Respublika və Beynəlxalq konfranslarda etdiyi məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından və əlavələrdən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırlmış, xronoloji çərçivəsi göstərilmiş, öyrənilmə səviyyəsi, məqsəd və vəzifələri müəyyən edilmiş, elmi yeniliyi, əməli əhəmiyyəti müəyyənləşdirilmişdir.

Dissertasiyanın **birinci fəsli** "Azərbaycan əlyazma kitabına bir baxış" adlanır. Əlyazma kitablarının ilk nümunələrinin yaranmasına qədər Azərbaycan yazısı, qaynaqlardakı bilgilərə əsasən, gil lövhələrdə, papirus, perqament üzərində yaranaraq, dövrümüzə qədər gəlib çatmışdır. Orijinal və köçürüldüyü nüsxələrdə müasir dövrümüzə gəlib çatmasa da, mütəxəssislər Azərbaycan yazısının ilk abidəsi kimi, zərdüştiliyin müqəddəs kitabı olan "Avesta"nı hesab edirlər. Şair, filosof Zərdüştün müdrik kəlamlarını, nəsihətlərini özündə əks etdirən "Avesta" neçə minillər ərzində Yaxın və Orta Şərqdə ən oxunaqlı, dəfələrlə müxtəlif dillərə tərcümə olunmuş Azərbaycan kitabıdır. Azərbaycan əlyazma kitabı anlayışında təsəvvür etdiyimiz kitabların

meydana gəlməsi isə islamiyyətin Azərbaycanda yayıldığı ilk yüzilliklərə təsadüf edir. Qədim, möhtəşəm yazılı epos abidəsi "Kitabi-Dədəm Qorqud" dastanının da Azərbaycan kitabşünaslığı tarixində müstəsna yeri vardır. İki yüz ildən artıq tədqiq tarixi olan "Kitabi-Dədəm Qorqud" Azərbaycan şifahi xalq ədəbiyyatının ən qədim və ən dəyərli yazılı abidəsidir.

Artıq həmin ərəfədə kağızdan yazı ləvazimatı kimi istifadə olunması əlyazma kitablarının yaranmasında başlıca rol oynamışdır. Xilafət qoşunları VII yüzillikdə Çinə qədəm qoyarkən, onlara burada kağızın istehsal olunduğu məlum olur. Sonralar ərəblər kağızın hazırlanma texnologiyasını xilafətin mərkəzi şəhərlərində - Bağdad, Dəməşq və s. yerlərdə tətbiq etmişlər. Mənbələrin verdiyi məlumata görə IX yüzillikdə Azərbaycanın Xunəc şəhərində ilk dəfə kağız müəssisəsi işə düşəndən sonra burada kağız istehsal olunmağa başlanmış və kağız istehsalında böyük şöhrət qazandığına görə Xunəc daha sonralar Kağızkunən adlandırılmışdır. Həmin məkan elə bu gün də Kağızkunən adlanmaqdadır. Elə həmin yüzillikdə Həmədanda əlyazma kitabları ilə zəngin olan Əbül Vəfanın kitab kolleksiyası olmuşdur. Bu kitabxanada uzun müddət çalışmış ərəb şairi Əbu Təmmamın (796-848) yazdığı, IV-IX yüzilliklərdə yaşamış 570 ərəb şairinin həyatını və bədii yaradıcılığını özündə əks etdirən 5 kitabdan ibarət "Əl - Həmasə" antologiyası və bu kitaba XI yüzilliyin görkəmli ədəbiyyatşünas alimi Xətib Təbrizinin (1030-1109) yazdığı "Şərhi-Həmasə" əsəri ədəbiyyat və kitab tariximizin qədim qaynaqları haqqında bizdə ilkin, geniş təsəvvür yaradır[1]. Əbül - Üla Gəncəvi, Məsud ibn Namdar, Eynəlqüzzat Həmədani (Miyanəçi), Fələki Şirvani, Sührəvərdi, Mücirəddin Beyləqani, Xətib Təbrizi, Qətran Təbrizi, Xaqani Şirvani, Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Hübeyiş Tiflisi, Əbunnəcib Sührəvərdi, İzzəddin Şirvani, Şihabəddin Yəhya, Mxitiar Qoş və b. qələm sahiblərinin Azərbaycan, Şərq, həmçinin dünya elm, ədəbiyyat və kitab yaradıcılığının inkişafında mühüm xidmətləri olmuşdur. Bu müəlliflərin hər biri özlərindən sonra zəngin irs qoyub getmiş və

[1]Şərifli K. Mətnşünaslığın nəzəri əsasları. – B.: Nurlan, 2011. – 345 s

müxtəlif zamanlarda onların üzü köçürülmüş əsərlərinin çoxlu sayda nüsxələri bu gün dünya kitabxanalarında saxlanmaqdadır. Misirin Xədiviyyə Milli Kitabxanasında Azərbaycan, türk, fars dillərində saxlanılan əlyazmalar içərisində Nizaminin əsərlərindən "Məxzənül-əsrar", "Xosrov və Şirin", "Leyli və Məcnun", "İsgəndərnamə" və bunlardan əlavə müxtəlif illərdə köçürülən əlyazmaları saxlanılır.
Orta çağlara aid əlyazma kitablarının meydana gəlməsində əsər müəllifləri qədər kitab yaradıcılarının - xəttat, mücəllid, müzəhhib və digərlərinin də xidməti olmuşdur. Müştərək əməyin sayəsində yaranmış kitablar nəfisliyi ilə seçilmişdir. XV yüzil mütəfəkkirlərindən Əbdülqadir Marağayi, Bədr Şirvani, Əşrəf Marağalı, Seyid Yəhya Bakuvi, Həqiqi, Xətai Təbrizi, Hidayət, Hamidi, Xəlili və başqaları ilə bərabər, Cəfər Təbrizi, Mirəli Təbrizi, Kəmaləddin Behzad, Qəvaməddin Təbrizi, Xoca Əli Müsəvvir, Qiyasəddin Təbrizi, Xəlil Mirzə, Zəhirəddin Əzhər kimi xəttat və rəssamların köçürüb, bədii tərtibat verdikləri əlyazmalar nadir kitab sənəti nümunələrindəndir.

Orta çağların məşhur alimi Əbu Əli ibn Sinanın tibb elminə aid "Əl - Qanun fit-tibb" əsərindən başlayaraq, XIX yüzilə qədər təbabətə həsr olunmuş çoxlu əlyazma kitabı köçürülmüş və onların 400-ə yaxın nüsxəsi hal - hazırda AMEA-nın M. Füzuli adına Əlyazmalar İnstitutunun fondunda saxlanılır. Azərbaycan əlyazma kitablarının ilk qədim nüsxələrinin XI yüzilə aid olması fikri elmi ədəbiyyatda əlyazma kitabı tariximizin başlanğıcı kimi qəbul edilir.

IX yüzillikdə Azərbaycan ərazisində ilk kağız müəssisəsinin meydana gəlməsi əlyazma kitablarının yaranmasına şərait yaratmışdır. Buna qədər isə Orta Asiyadan (Səmərqənd, Buxara) kağızın gətirilərək əlyazmaların köçürülməsində istifadə edilməsinə əsasən əlyazma kitablarımızın tarixinin daha qədim olmasını söyləyə bilərik. Mənbələrin məlumatına görə, h. 447 (m.1056-cı) ildə Əbu Mənsur Müvəffəq əl-Hərəvinin xəttat Əli ibn Əhməd əl-Əsədi ət-Tusi tərəfindən köçürülmüş "Kitabül-ənbiya ən hədaiqil-ədviya" ("Əczaçılığın həqiqətləri haqqında əsaslar kitabı") əlyazması ən qədim müsəlman fars kitabı sayılır. Lakin M.Adilovun da qeyd etdiyi kimi, əlyazmasının katibinin azərbaycanlı (tuslu) olduğu dəqiqləşərsə, onda

əl-Hərəvinin əlyazması ilk Azərbaycan kitabı kimi qəbul edilə bilər. Eyni zamanda Xətib Təbrizinin Tunisin Milli Kitabxanasında saxlanılan, h.486 (m.1093-cü) ildə köçürülmüş əl-Müfəzzəlin "İxtiyarat" əsərinə yazdığı şərhin avtoqraf nüsxəsi də ilk Azərbaycan kitablarından hesab edilir[1].

Beləliklə, Azərbaycan əlyazma kitabının yarandığı ilk vaxtdan keçdiyi inkişaf yolunun aşağıdakı xüsusiyyətlərini göstərmək olar:

1. Əlyazma kitabı yaranana qədər Azərbaycanda bir neçə əlifbada geniş şəkildə yazı təcrübəsi olmuş və bu, müxtəlif yazı ləvazimatlarında - gil lövhələrdə, daş kitabələrdə, perqamentlərdə (inək, qoyun, ceyran, ilan, balıq dərilərində) və s. əks olunmuşdur.
2. Əlyazma kitabları fərdi və kollektiv əməyin məhsulu olaraq xəttat - katib, mücəllid, müsəhhih, müzəhhib, nəqqaş, miniatürçü rəssam tərəfindən yaranmışdır.
3. Əlyazma kitabları yazılı abidələr olmaqla bərabər, həmçinin nəfis bədii tərtibatına görə incəsənət əsəri nümunələridir. XVI yüzillikdə Şah Təhmasibin sarayında köçürülmüş Firdovsinin "Şahnamə" (1537-ci il, Houğton kolleksiyası, Nyu-York), Nizaminin "Xəmsə" (1539-1543-cü illər, London, Britaniya muzeyi) əsərləri belə nümunələr hesab edilir.
4. Əlyazma kitablarına təkcə azərbaycanlı müəlliflərin deyil, həmçinin digər Şərq xalqları mütəfəkkirlərinin yerli katiblər tərəfindən üzü köçürülən əsərləri daxildir.
5. Əlyazma kitabları müəllif əsərlərinin köçürüldüyü külliyyatlar, dini kitablar (Quran), müxtəlif ədiblərin janrından asılı olmayaraq yazdıqları dini, elmi, bədii əsərlərin toplandığı məcmuələr, şairlərin ayrıca divan nüsxələri, eyni zamanda ayrı-ayrı şairlərin şeirlərindən ibarət cünglər, bəyazlar, təzkirələr və s. şəkildə dövrümüzə gəlib çatmışdır.

---

[1]Adilov M. Azərbaycan paleoqrafiyası və tarixi orfoqrafiya məsələləri. - Bakı: Nurlan, 2002, 199 s.

“XIX yüzil Azərbaycan kitabı və çap sənətinin meydana gəlməsi” adlanan **ikinci fəsildə** dövrün ictimai-siyasi xüsusiyyətləri verilir və göstərilir ki, Təbriz Azərbaycan şəhərləri arasında çapçılıq işinin meydana gəldiyi ilk şəhərdir. XIX yüzillikdə Azərbaycan kitab mədəniyyəti tarixində, ümumiyyətlə, Azərbaycan xalqının həyatında yeni bir mərhələ, yeni bir dövr başlanır. Bu dövrdə Azərbaycan təhsili məktəb və mədrəsələrdə daha yeni forma və məzmun almaqla dünyəvilik fonunda inkişaf etməyə başladı. Məktəblər açıldıqdan sonra dərsliklər də yaranmağa başladı. Çar hökumətinin açdığı məktəbin ibtidai sinif şagirdləri üçün nəzərdə tutulan dərsliyin birinci hissəsinin hazırlanmasında Aleksey Osipoviç Çernyayevskiyə Səfərəli bəy Vəlibəyov, Rəşid bəy Əfəndizadə və Həsənəli xan Qaradaği yaxından kömək etmişlər. İkinci, üçüncü sinif şagirdləri üçün nəzərdə tutulan “Vətən dili” dərsliyinin ikinci hissəsi 1888-ci ildə A.O. Çernyayevskinin və S.H. Vəlibəyovun tərtibində çap olunmuşdur. XIX yüzilliyin sonlarında yaranan dərsliklərdən biri də Həsən ibn Mehdinin “Vətən dili” (“Əlifbayi-cədidə”) kitabıdır[1]. Həsən ibn Mehdi dərsliyin həm müəllifi, həm də naşiridir. Kitab işinin inkişafında kitabxana və qiraətxanalar böyük rol oynayırdı. Zəngin şəxsi kitabxanalardan biri XIX yüzillikdə Şəki şəhərində yaşamış görkəmli maarif xadimi, xəttat Əbdülqəni Nuxəvi Xalisəqarızadəyə (1817-1879) məxsus olmuşdur. Onun kitabxanasında Xaqani Şirvaninin, Nizami Gəncəvinin, Şeyx Mahmud Şəbüstərinin, Şah İsmayıl Xətainin, Məhəmməd Füzulinin, Əhmədi Təbrizinin, Şəms Təbrizinin, Saib Təbrizinin, Yusif Məddahın, Şihabəddin Sührəverdinin, Nəsirəddin Tusinin, Abbasqulu ağa Bakıxanovun, Əlişir Nəvainin, Uluğ bəyin, Büruninin, Cəlaləddin Ruminin, Firdovsinin, Hafizin, Sədinin, İbn Sinanın, Fərabinin əsərləri, eləcə də bir sıra şifahi xalq yaradıcılığı nümunələri olmuşdur. Ancaq minlərlə əlyazma kitabının toplandığı bu zəngin xəzinədən az bir hissə çağdaş dövrümüzə gəlib çatmışdır. XIX yüzilliyin sonlarında bir sıra Azərbaycan ziyalılarının səyi nəticəsində ayrı-ayrı şəhərlərdə ümumi kitabxana və qiraətxanalar açılmağa başlamışdı. Mir Möhsün Nəvvabın

[1]Həsən ibn Mehdi. Vətən dili. Təbriz, “Müzəffəriyyə” mədrəsəsinin mətbəəsi, 1312 h. (1894 m.) (şifr: XII - 340)

və digərlərinin yaratdıqları qiraətxanaların kitab işinin inkişafına müsbət təsiri olmuşdur.

XIX yüzillikdə Azərbaycan kitabını ədəbiyyat, tarix, coğrafiya,tibb, ilahiyyat və s. sahələr üzrə təmsil edən kitablar yarandı. Dahi klassik şairimiz Məhəmməd Füzulinin ”Leyli və Məcnun”, ”Bəngü-badə” və “Hədiqətüs-süəda” əsərləri, Aciz, Şüai, Dilsuz, Ləli, M.H. Qüdsi, Nəbati, Seyid Əzim Şirvaninin 1856 – 1895-ci illərdə Təbrizdə daşbasma üsulu çap olunan şeir divanları kitab tariximizin qiymətli inciləridir. Həmin yüzillikdə yaranan və h. 1312 (m. 1894 - cü) ildə nəşri reallaşan əsərlərdən biri Mirzə Həsən əfəndi əl-Qədarinin “Asari-Dağıstan” kitabıdır. Kitabda I Şah Abbasın Azərbaycan və Dağıstanı tutması, XVIII əsrin əvvəllərində I Pyotrun Azərbaycan və Dağıstanı fəth etmək təşəbbüsləri, Nadir şah Əfşarın hərbi səfərləri və 1747-ci ildə Nadirin ölümündən sonra müstəqil xanlıqların hakimiyyəti, Şeyx Şamilin Dağıstanın azadlığı uğrunda 29 illik mübarizəsi təsvir olunur.

Tibbə aid əsərlər əvvəlki dövrlərdə olduğu kimi XIX yüzillikdə də yaranmış və yaxud mövcud olan tibbə aid əlyazmaların üzü katiblər tərəfindən köçürülmüşdür. Bu əlyazmalar ərəb-fars dillərində olsalar da, tibb tarixinin öyrənilməsində mühüm əhəmiyyətə malik mənbələr kimi Əlyazmalar İnstitutunda saxlanılır. Bunlardan İbn Sinanın “Qanun fi əl - Tibb” əsəri h.1268 (m.1852 - ci) ildə köçürülmüşdür. Əlyazma əsəri D - 332/10309 şifrəsi altında institutun fondunda qorunub saxlanılır. Tibbə aid digər fars dilində əlyazma Mahmud İbn İlyas Şirazi tərəfindən köçürülmüşdür. “Kitab - Tıbb” adlanan əlyazma B - 70/2161 şifrəsi ilə Əİ-da saxlanılır.

Azərbaycanda ilahiyyat elminin XIX yüzillikdə ən böyük nümayəndələri Axund Məhəmmədəli Hüseynzadə, Axund Əhməd Hüseynzadə (Səlyani) və Axund Əbdüssəlam Axundzadə olmuşlar. Onların hər üçü Qafqazın şeyxülislamı kimi fəaliyyət göstərmişlər. 1823-cü ildən 1907-ci ilədək, təxminən doxsan il ərzində

şeyxülislamlıq vəzifəsini tutmuş bu şəxslər ilahiyyatçı, uzun müddət dini idarənin rəhbəri olmaqla bərabər, dünyəvi baxışları, dünyəvi təhsilə üstünlük vermələri ilə seçilmişlər. Axund Əhməd Hüseynzadə (Səlyani) yazmış olduğu dini, elmi əsərləri ilə XIX yüzillikdə Azərbaycan kitabçılığının inkişafına da xidmət göstərmişdir. O, “Qafqaz məmləkətinin xalqları”, “Kitab kəşfil-əyyəm vəşühur”, “Tərbiyətül-ətfal”, “Dilguşə”, “Müəllimül ətfal fi təriqət təlimil - ətfal” əsərlərini, Qafqaz canişininə müridizm barədə geniş təfsilatlı məktubu və s. qələmə almışdır. Azərbaycan ilahiyyatçıları arasında Şeyx Əhməd Hüseynzadədən sonra Əbdüssəlam Axundzadənin “Tarixi-müqəddəsi-ənbiya” kitabı Qafqazda bu qəbildən yazılmış ilk əsər idi. Bundan başqa o, “Risale-zibdətül-ehkam”(1903) dərsliyinin, “Cəhalət dərdinin dərmanı və tədavi üsulunun şərh və bəyanı” (Sankt-Peterburq, 1889) “Xətti-təliq və nəstəliq” (Tiflis, 1903), “Miftah lisani-farsi” kimi çox dəyərli əsərlərin müəllifi olaraq tanınır.

Dünya şöhrətli səyyah, coğrafiyaşünas, tarixçi, ədəbiyyatşünas Hacı Zeynalabdin Şirvani (1780-1838) Azərbaycan elmi və kitabı tarixində yeni səhifələr yazmışdır. Professor N. Kərəmov “Odlar yurdunun səyyah və coğrafiyaşünasları (X-XIX əsrlər)” adlı kitabında göstərir ki, Şirvani ömrünün 40 ilini səyahətdə keçirmiş və bu müddətdə Kiçik Asiya, İran yaylalarını, çətin keçilən susuz Orta, Mərkəzi Asiya, Ərəbistan səhralarını, Sudan savannalarını seyr etmiş, Seylon, Hindistan, Hind-Çin, İndoneziya meşələrini gəzmiş, Nil çayının orta və aşağı axınlarını müşahidə etmiş, Kuhi-Baba, Hindiquş, Tyan-Şan, Himalay, Pamir, Süleyman, Zaqroş və s. çətin keçilən dağ silsilələrini aşmış, Həbəşistan dağlarına qalxmış və bu, Şirvaninin böyük iradəyə malik səyyah olmasını sübut edir. H.Z. Şirvaninin gəzib, səyahət etdiyi yerlərlə bağlı yazdığı “Riyazüs-səyahə”, “Hədayiqüs-səyahə”, “Bustanüs-səyahə”, “Kəşfül-maarif” kimi dörd iri kitab ona böyük şöhrət qazandırmışdır. Son dövrlərə qədər elmi ədəbiyyatda ilk

Azərbaycan çap kitabı kimi Rusiya imperatriçası II Yekaterinanın zamanında - 1780-ci ildə Sankt-Peterburqda çapdan buraxılmış "Məzidi-izzət və müqəddəs cənablu mübaliğə ilə hökmdar-padşahi-əzəmi-imperatriçə Yekaterina saniyə həzrətlərinin cəmi Rusiyyə imperiyasında nizam və tərtibi üçün icad və imla olunmuş qanuni-cədididir" adlı 248 səhifəlik kitab hesab edilirdi. Qeyd edək ki, kitab hazırda M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının "Nadir kitablar və kitabxana muzeyi" şöbəsində N-63 şifri ilə saxlanılır. Araşdırmalardan sonra məlum olmuşdur ki, ilk Azərbaycan çap kitabı vətənimizdən çox uzaqlarda bu tarixdən xeyli əvvəl yaranmışdır Görkəmli Azərbaycan alimi Nəsirəddin Əbu Cəfər Məhəmməd ibn Məhəmməd ət-Tusinin (1201-1274) elmi nailiyyətləri avropalıların həmişə diqqət mərkəzində olmuş və əsərləri son yüzilliklərə qədər məktəblərdə tədris olunaraq öyrənilmişdir. Onun elmi əsərlərinə tələbat böyük olduğundan, 1594-cü ildə Romada Ferdinand Mediçi mətbəəsində Evklidin "Başlanğıc" əsərinin şərhinə həsr olunmuş "Təhriri-Öqlidis"in ilk dəfə çapı reallaşdırılmışdı. Əsər ikinci dəfə 1598-ci ildə yenə də Romada çap olunmuşdur. Bu dəyərli kitaba ehtiyac günü - gündən artdığından 1657-ci ildə latın dilində Londonda təkrar çap edilir.[1]

Təbriz Azərbaycan şəhərləri arasında çapçılıq işinin meydana gəldiyi ilk şəhərdir. Burada ilk çap kitabı 1818-ci ilin iyul ayında Mirzə İsa Qaimməqamın "Cihadiyyə" adlı kitabı ilə meydana gəlmişdir. Kitabın naşiri Məhəmmədəli ibn Hacı Məhəmməd Hüseyn əl-Aştiyani olmuşdur. Bu əsərin çap olunması ilə Azərbaycanda çapçılıq sənətinin əsası qoyulmuşdur. Ancaq burada bir məsələyə aydınlıq gətirilməlidir ki, Mirzə İsa Qaimməqamın adı çəkilən əsərinin Saleh Şirazinin Londonda təhsil alıb geri dönərkən gətirdiyi çap dəzgahında çap olunduğu qeyd edilir. Qeyd edək ki, bu əsər Mirzə Saleh Təbrizə gələnədək artıq bir dəfə 1818-ci ilin sonlarında çap olunmuşdu.

[1] İlk Azərbaycan kitabı /Tərt. A.Xəlilov. - Bakı: Şərq-Qərb, 1995, 48 s.

Xatırladaq ki, Mirzə Saleh Şirazi və beş nəfər gənc Abbas Mirzənin təşəbbüsü ilə 1815-1819-cu illərdə İngiltərədə təhsil alıblar. Onların Londondan geri dönüşü 1819-cu ilin oktyabr - noyabr aylarına təsadüf edir. Məhz, "Cihadiyyə"nin ikinci nəşri həmin ilin sonlarında, noyabr-dekabr aylarında Mirzə Salehin dönüşündən sonra baş tutmuşdur. Bu kitab fars dilində olmaqla, Çar Rusiyası ilə Qacarlar hakimiyyətinin uğursuz və bərabər olmayan qüvvələr şəraitində gedən müharibəsindən bəhs edir. Beləliklə, Azərbaycanda çapçılıq işinin əsası 1818-ci ildə fars dilində nəşr olunan "Cihadiyyə" kitabı ilə qoyulmuşdur. Bir il sonra isə (1819) məşhur Azərbaycan alimi Mirzə Zeynalabdin Təbrizi tərəfindən əsər təkrar nəşr olunmuşdur. Böyük Azərbaycan şairi Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasının ilk dəfə burada nəşri ilə anadilli çap sənəti meydana gəlmişdir. Həmin nəşrin hansı mətbəədə basılması bəlli olmasa da, bu gün AMEA - nın Əlyazmalar İnstitutunda saxlanılan nüsxənin sonundakı katib kolofonundan aydın olur ki, o, Axund Molla Abdulla əl-Mürtəzəvinin xahişi ilə çap olunmaq üçün h.1234 (m.1819-cu) ildə xəttat Yusif əl Musəvi tərəfindən yazılaraq, litoqrafiya üsulu ilə çap olunmuşdur. Beləliklə, 1819-cu il Azərbaycanda qrafik kitabın yaranma tarixi və böyük şairimizin məşhur "Leyli və Məcnun" əsəri ana dilində çap olunmuş ilk kitab sayılır. Kitab çapı işində ilk addımı böyük mütəfəkkir Mirzə Fətəli Axundzadə (1812-1878) atmışdır. O, bir çox ölkələri gəzib, kitab çap etmək təcrübəsini öyrəndikdən sonra milli çapxana yaratmaq, azərbaycanlı müəlliflərin əsərlərini nəşr etməyə qərar vermişdi. Bu məqsədlə o, 1841-ci ildə iki dəfə (yanvar və avqust aylarında) Tiflisdən Sankt - Peterburqa qədər dövlət adamlarına ərizə ilə müraciət etmiş və sevimli müəllimi Mirzə Şəfi Vazehi özünə köməkçi götürdüyünü bildirmişdi.[1]

XIX yüzillikdə çap olunmuş kitabların böyük bir qismi bu gün Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda, bir xeyli hissəsi də M.F. Axundzadə adına

[1]Səidzadə Ə. Mirzə Fətəli ilə Mirzə Şəfinin mətbəə açmaları üçün çalışmaları //Ədəbiyyat qəz. – 1940. - 11oktyabr, №31

Azərbaycan Milli Kitabxanasının arxiv fondunda mühafizə edilir. Əlyazmalar İnstitutunun xəzinəsində on minə yaxın çap kitabı saxlanılır ki, daşbasma üsulu ilə və ya köhnə elektrik mətbəəsində çap olunan bu kitablar əski çap kitabları adlandırılır.

XIX yüzillikdə çap olunmuş kitabların böyük bir qismi bu gün Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda, bir xeyli hissəsi də M.F. Axundzadə adına Azərbaycan Milli Kitabxanasının arxiv fondunda mühafizə edilir. Əlyazmalar İnstitutunun xəzinəsində on minə yaxın çap kitabı saxlanılır ki, daşbasma üsulu ilə və ya köhnə elektrik mətbəəsində çap olunan bu kitablar əski çap kitabları adlandırılır. Burada dünyanın bir sıra mədəniyyət mərkəzlərində - İstanbul, Tehran, Kazan, Daşkənd, Qahirə, Moskva, Sankt-Peterburq, London, Berlin, Vyana və s. şəhərlərində çap olunan kitablarla yanaşı, Azərbaycanın ayrı-ayrı şəhərlərində nəşr olunmuş kitablar da saxlanılır. Qeyd edək ki, harada çap olunmasından asılı olmayaraq, bu sərvət Azərbaycan xalqına məxsusdur və bu irs qədim əlyazmalar kimi (artıq onların çap olunduğu vaxtdan 100-150 ildən çox bir zaman keçmişdir) son dərəcə böyük dəyərə malikdir.

Beləliklə, Azərbaycan əski çap kitablarının türkdilli, farsdilli, ərəbdilli və Avropa dillərində olan nümunələrini nəzərdən keçirdikcə, onların müxtəlif mətbəələrdə çap olunmasının və dünyanın ayrı-ayrı kitabxanalarında saxlanmasına görə kitab xəzinəmizin zəngin və yayılma arealının nə qədər geniş olmasının şahidi oluruq.

**Üçüncü fəsil** ”Kitab işinin tarixində Mir Möhsün Nəvvabın rolu” adlanır. Zamanında şair, yazıçı, musiqişünas, astronom, astroloq, pedaqoq, xəttat, rəssam və ictimai xadim kimi tanınan M.M. Nəvvab eyni zamanda kitab çapçısı kimi də böyük müvəffəqiyyət qazanmışdır. M.M. Nəvvab kimi ensiklopedik biliyə malik olan bir mütəfəkkirin kitab çapı sahəsindəki fəaliyyəti indiyədək kifayət qədər araşdırılmamışdır.

Dissertasiya işində M.M. Nəvvabın kitab tərtibatı, kitab çapı, maarif və kitabçılıq (əlyazma və daşbasma) sahəsindəki fəaliyyəti geniş tədqiq olunur. Görkəmli kitabşünasın geniş, çoxcəhətli yaradıcılığı içərisində

onun kitab, əlyazma kitabı, kitab çapı ilə bağlı fəaliyyəti xüsusi yer tutur. Onun təliq xətti ilə fars dilində yazdığı avtoqraf "Divan"ı Б-3037/21442 və Б-5234/26478 şifri altında AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır. Mir Möhsün Nəvvabın farsca "Divan"ı 1897-ci ildə Şuşada müəllifin şəxsi mətbəəsində daşbasma üsulu ilə çap edilmişdir. Yuxarıdakı fəsillərdə XIX yüzilliyin sonuna kimi Azərbaycanda kitabların əlyazma şəklində qalmasını qeyd etmişdik. Mahir xəttat olan M.M. Nəvvabın araya-ərsəyə gətirdiyi əlyazmaları öz tərtibatı, miniatürlərlə bəzədilməsi, mürəkkəbi, cildi və s. xüsusiyyətləri ilə bu gün də seçilir və diqqəti cəlb edir. Xüsusilə, onun çəkdiyi rəsm əsərləri insanı heyran qoyur. Rənglər son dərəcə parlaq və canlıdır.

Prof. N.Axundov M.M. Nəvvabın yaradıcılığının sözün həqiqi mənasında hərtərəfli təhlilinə həsr etdiyi silsilə məqalələrində bu məsələləri də işıqlandırır. Müəllif göstərir ki, Nəvvab rəngkarlıq sənətini dərindən bilirdi. O, Şuşadakı otlardan, bitkilərdən müxtəlif rənglər alar və əlyazmalarının köçürülməsində bu rənglərdən istifadə edərdi. Nəvvab özünün "Məzamir", "Şəmsül-hidayə" əsərlərini ayrı-ayrı xəttatlara köçürtmüşdür. M.M. Nəvvab məşhur təzkirəsində Qarabağ şairlərinin öz xətləri ilə yazdıqları avtoqrafları vermişdir. Hazırda bir sıra Qarabağ şairlərinin dəsti - xətti bizə yalnız Nəvvabın təzkirəsindən (əlyazmasından) məlumdur.

Həmid Araslı, Abbas Pənahi Makulu, akademiklər Kamal Talıbzadə, Bəkir Nəbiyev, prof. Kamran Məmmədov, prof. Nazim Axundov, fil.ü.f.d. Vəli Məmmədov və başqaları onun yaradıcılığının ayrı-ayrı məqamlarına bu və ya digər dərəcədə toxunmuşlar. M.M. Nəvvabın fəaliyyətinin elmi - pedaqoji cəhətləri son dövrlər bir qədər geniş təhlil və tədqiq olunsa da onun kitab işinin tarixindəki rolu geniş tədqiqata cəlb edilməyib. Mir Möhsün Nəvvab "görkəmli kitabşünasdır" desək yanılmarıq. Bu titulu o, öz ölməz əsərlərini yazmaqla, əlyazma kitablarını tərtib edib gələcək nəsillərə yadigar qoymaqla qazanmışdır.

M. Nəvvab türkcə "Divanı"nın dibaçəsində yazdığı əsərlərin siyahısını verir və qeyd edir: "... təhsilimi başa vurduqdan sonra "Cəfri-cameyi-mürtəzevi" kitabını on dörd aya köçürdüm. Həmin kitabı

Nəsrəddin şah Qacara ithaf etdim..."[1]. Nəvvabın əsərləri bu və ya digər dərəcədə tədqiqatçı alimlər Z. Göyüşov, B. Məmmədov, N. Axundov, N. Qarayev, Ə. Mirəhmədov, İ. Zəkiyev və başqaları tərəfindən tədqiqata cəlb edilmişdir. Onun bir kitabşünas kimi fəaliyyəti və kitab tərtibatındakı qabiliyyət və bacarığı da bu tədqiqatçılar tərəfindən yüksək qiymətləndirilmişdir. Ədibin bu sahədəki fəaliyyətini araşdıran professor Adil Qazıyev M.Nəvvabın kitab tərtibatı sahəsindəki nailiyyətlərindən bəhs edərək yazırdı ki, o, bu işin xüsusiyyət və tələblərini yaxşı bilirdi. Kitabın ünvanını (titul vərəqini) onun girişini və əsərin başlanğıcını müvafiq olaraq "başlıqlar"la və əsərin sonunu "sonluq"la qeyd edir və tamamlayırdı. Mənzum əsərlərin mətnini yazarkən səhifələri iki və ya dörd sütuna bölürdü. İlk qoşa səhifələrin haşiyə və sətirlərin arasını zər və rəngli boyalarla zinətləndirərdi[2]. Bu işıqlı zəkaya malik Azərbaycan aydını gördüyü hər bir işlə xalqımızın mədəniyyət və kitab tarixinin inkişafına xidmət etmişdir.

Mir Möhsün Nəvvab Ağamirzadə XIX yüzil Azərbaycan ədəbiyyatının müqtədir simalarından biri kimi mədəniyyət və onun ayrılmaz tərkib hissəsi olan kitab tarixində silinməz izlər qoymuşdur. M. Nəvvabın mühüm xidmətlərini aşağıdakı kimi yekunlaşdırmaq olar:

- Nəvvab mahir əlyazmaçıdır. O, orta əsr kitab sənəti ənənəsini məharətlə davam etdirmiş və bu sənətə çoxlu yeniliklər gətirmişdir.
- Nəvvab özünə məxsus əsərlərindən, əlyazmalarından əlavə təzkirə, cüng və bəyazlar tərtib etmiş, bununla da gələcək nəsillərə qiymətli töhfələr qoyub getmişdir.
- Nəvvab gözəl rənglər hazırlayırdı. Bu rənglərin sirrini o özü bilirdi. Əsərlərinə çəkmiş olduğu bənzərsiz rəsmlər bu rənglər hesabına olduqca cazibədar idi və insanı indi də heyran qoyur.
- Nəvvab mahir rəssam idi. Əsərlərinə çəkmiş olduğu miniatürlər, digər rəsm əsərləri bənzərsiz rəssamlıq nümunələri idi.
- Nəvvab böyük musiqiçi idi. O, musiqi elminə aid yazdığı əsərləri,

---

[1]Nəvvab M.M. Divan / hazırl.: Məmmədbağıroğlu Ə, Ramazanov A; tərc. Kərimov R. - B., 1999. - 192 s.

[2]Qazıyev A. Nəvvabın bədii yaradıcılığına dair. //"Azərbaycan" jur, 1974. - №7. – s.179-182.

yaratdığı "musiqiçilər məclisi" ilə bunu sübut etmişdir.
- Nəvvab şair idi. Gözəl şeir, qəzəl və qəsidələri ilə yaddaşlara həkk olunmuşdu. Bu əsərləri divan şəklində tərtib edib, üzünü köçürürdü.
- Nəvvab ilahiyyatçı idi. Fırıldaqçı din xadimlərinə, islam dininə şərik qoşanlara qarşı əsərləri ilə mübarizə aparırdı.
- Nəvvab «Məclisi-fəramuşan» adlı ədəbi məclisin yaradıcısı idi. Dövrünün şair təbli insanlarını başına toplayır, müasirləri ilə məktublaşır, dövrün ədəbi mənzərəsini çızır və öz əlyazmalarını məclis üzvləri arasında təbliğ edirdi.
- Nəvvab kitabxana - qiraətxana açmış, oğlu Miriş Ağa ilə birlikdə maarif və mədəniyyətin inkişafı üçün fəaliyyət göstərmişdi.
- Nəvvab Şuşada litoqrafiya - daşbasma mətbəəsi yaratmışdı. Burada nəinki öz əsərlərini, həmçinin başqa müəlliflərin əsərlərini də çap etmişdi.
- Nəvvabın astronomiya və səma cisimləri haqqında əlyazmaları mövcud idi. Həmçinin onun münəccimlik qabiliyyəti var idi.

Beləliklə, dissertasiyanın bu fəslində XIX yüzil Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan kitab tarixində silinməz izlər qoymuş M.M. Nəvvabın bu sahədəki yaradıcılığı geniş tədqiq olunmuşdur.

Dissertasiyanın **Nəticə** hissəsində qarşıya qoyulmuş məqsəd və vəzifələrin yerinə yetirilməsi haqqında ümumiləşdirici məlumatlar, əldə olunan elmi nəticələr öz əksini tapmışdır.

**Əlavələrdə** tədqiqata cəlb olunmuş müxtəlif əlyazmaların və M.M. Nəvvabın rəsmlərinin fotosurətləri verilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. Kitab tarixi - mədəniyyət tarixinin tərkib hissəsi kimi // Tarix və onun problemləri, Nəzəri, elmi, metodik jurnal, Bakı, 1999, № 1, s. 72-76

2. XIX yüzil kitab tarixinin inkişafında M.M. Nəvvabın rolu // Tarix və onun problemləri, Nəzəri, elmi, metodik jurnal, Bakı, 2000, № 3/4, s. 56-60

3. Mir Möhsün Nəvvab. Biblioqrafiya: bibl. vəsait. - Bakı, Nağıl Evi nəşriyyatı, 2001, 108 s.

4. XIX əsr Azərbaycan əlyazma kitabının köçürülməsi, yayılması və bədii tərtibat xüsusiyyətləri // AzTU-nun elmi əsərləri. Humanitar elmlər seriyası, Bakı, 2008, № 3, s. 17-20

5. XIX əsrdə Azərbaycanda kitab çapı tarixindən // AMEA Tarix İnstitutu, Elmi əsərlər, 2010, cild 34-35, s. 53-59

6. Kitab çapı Mir Möhsün Nəvvabın fəaliyyətində mühüm bir sahə kimi // Azərbaycanşünaslığın aktual problemləri, I Beynəlxalq elmi konfrans, Bakı Slavyan Universiteti, 3-8 may 2010, s. 36-39

7. Место школ, медресе и личных библиотек в истории книг азербайджанской культуры XIX века // Вестник КазНУ (Казахский Национальный Университет им. Аль-Фараби). Серия историческая, № 1(68), Алматы, 2013, с.138-142

8. XIX yüzil Azərbaycan kitab mədəniyyəti tarixində şəxsi kitabxanaların rolu // Pedaqoji Universitet xəbərləri. Humanitar elmlər bölməsi, ADPU, Bakı, 2013, s.139-142

9. XIX yüzil Azərbaycan əlyazma kitabının bədii tərtibat məsələləri // Azərbaycanşünaslığın aktual problemləri, V Beynəlxalq elmi konfransın materialları, Bakı Slavyan Universiteti, 5-7 may 2014, s. 112-115

10. История библиотеки Дарульиршад и разбросанные по миру азербайджанские рукописи // Вестник КазНУ им. Аль-Фараби. Серия историческая, № 3, Алматы, 2014, с. 118-122

11. Azərbaycan əlyazma kitabı tarixinə qısa bir nəzər // Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası, Bakı, 2014, № 2, s. 209-214

**Г. И. Бахшалиева**

## История книжной работы Азербайджана в XIX столетии (рукопись, литография, книжное издание)

## РЕЗЮМЕ

В диссертации поставлена цель изучения истории книжной культуры, в том числе рукописи, литографии и книжной издании в Азербайджане в XIX столетии. Постановка задачи и объект исследуемой работы, появляются от необходимости заполнения пустоты в области книжной истории. Решение этих вопросов имеет научно-прикладное и практическое значение.

Диссертация состоит из введения, трех глав, заключения, из списка использованной литературы и дополнений.

Первая глава диссертации называется «Взгляд на историю рукописной книги Азербайджана». В этой главе коротко характеризуется история рукописной книги Азербайджана.

Во второй главе, которая называется «Азербайджанская книга XIX столетия и образование книжной издании» показана, что в этой столетии начинается новая эпоха в истории азербайджанской книжной культуры. Исследованы особенности рукописей и издательской книги того времени.

Третья глава называется «Роль М.М. Навваба в истории книги Азербайджана». Показывается что, деятельность в области книжной культуры М.М. Навваба до сих пор глубоко не исследована. В этой главе исследована его деятельность в области оформления и издания книги.

В заключении диссертации представлены главные итоги и обобщения исследования.

**G.I. Bakhshaliyeva**

## History of the book publication in Azerbaijan in XIX century (the manuscript, lithograph, book edition)

## SUMMARY

In the dissertation is presented an object in view of studying of history of book culture, including the manuscript, lithograph and book edition in Azerbaijan. Statement of a problem and object of investigated problems, appear from necessity of filling of emptiness in the field of book history. The decision of these problems has scientifically-applied and practical value.

The dissertation consists of the introduction, three chapters, the conclusion, the list of the used literature and the additions.

The first chapter of the dissertation is called «The view at history of the manuscript books of Azerbaijan». In this chapter the history of the hand-written books of Azerbaijan is shortly characterised.

In the second chapter which is called «The Azerbaijan book of XIX century and formation the book edition» it is shown that the new epoch begins in the history of the Azerbaijan book culture in this century. There is investigated the features of manuscripts and the publishing books of that time.

The third chapter is called «M.M.Navvab's role in the Azerbaijan book history». It is shown that, activity in the field of M.M. Navvab's book culture deeply is not investigated till now. In this chapter his activity in area registration and the book edition is investigated.

In the dissertation conclusion the main outputs and research generalisations are presented.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Гезал Исмаил кызы Бахшалиева**

# История книжной работы Азербайджана в XIX столетии (рукопись, литография, книжное издание)

Специальность: 5503.02 – Отечественная история

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени доктора философии по истории

**БАКУ – 2016**